ƏMR
№ 3-21/3-1-F-133/2025

Bakı şəhəri 26 sentyabr 2025-ci il

İqtisadiyyat Nazirliyində 2025-ci il üzrə növbəti "Uğur yolu" müsabiqəsinin təşkili haqqında

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununa və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə uyğun olaraq, İqtisadiyyat Nazirliyində rəhbər vəzifələrin tutulması üçün yüksək potensiallı ehtiyat kadrlar bazasının formalaşdırılmasında mövcud potensialın səmərəli istifadəsinin, kadrların düzgün seçilməsi və yerləşdirilməsinin, peşəkarlıq səviyyəsinin artırılmasının, rotasiyasının, hərtərəfli inkişaf üçün şəraitin yaradılmasının təmin edilməsi, eləcə də idarəetmə sahəsində təcrübə mübadiləsinin təşkil edilməsi məqsədilə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin 5.5.13-cü yarımbəndini rəhbər tutaraq

əmr edirəm:

1. İqtisadiyyat Nazirliyində 2025-ci il üzrə növbəti "Uğur yolu" müsabiqəsi (bundan sonra – Müsabiqə) keçirilsin.

2. Müsabiqənin keçirilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:
Komissiyanın sədri:
Elnur Əliyev – iqtisadiyyat nazirinin birinci müavini.
Komissiyanın üzvləri:
Orxan Nəzərli – Dövlət Vergi Xidmətinin rəisi;
Mətin Eynullayev – Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi;
Elvin Camalov – Aparat rəhbəri;
Xəqani Abdullayev – iqtisadiyyat nazirinin müşaviri;
Rauf Nəcəfli – iqtisadiyyat nazirinin müşaviri;
Fariz Cəfərov – Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru;
Sevinc İsmayılova – İnsan resursları şöbəsinin müdiri;
Aidə İbrahimova – "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin tabeliyindəki "Təlim Tədris Mərkəzi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri vəzifəsinin müvəqqəti icraçısı.

3. Komissiyaya tapşırılsın ki, müsabiqənin aşkarlıq və şəffaflıq prinsipləri əsasında

həyata keçirilməsini təmin etsin.

4. Komissiyanın cari fəaliyyətinin təşkili məqsədilə Katiblik funksiyasının həyata keçirilməsi İnsan resursları şöbəsinə həvalə edilsin. Katibliyin fəaliyyətinə rəhbərliyi İnsan resursları şöbəsinin müdir müavini Nərgiz Muradova həyata keçirsin.

5. İnsan resursları şöbəsinin müdiri Sevinc İsmayılovaya və Maliyyə-təminat və proqnozlaşdırma şöbəsinin müdiri Anar Hüseynova tapşırılsın ki, zərurət yarandığı təqdirdə Komissiyanın fəaliyyətinə və işinin təşkilinə ekspertlərin "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq ödənişli və ya ictimai əsaslarla cəlb edilməsini təmin etsinlər.

6. İnsan resursları şöbəsinin İnsan resurslarının inkişafı və islahatların həyata keçirilməsi sektorunun müdiri, "İqtisadi Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsin tabeliyindəki "Təlim Tədris Mərkəzi" publik hüquqi şəxsin İdarə Heyətinin sədri vəzifəsinin müvəqqəti icraçısı Aidə İbrahimovaya tapşırılsın ki, müsabiqə ilə bağlı təlimlərin təşkili üzrə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

7. Rəqəmsal idarəetmə şöbəsinin müdiri Anar Nərimanova tapşırılsın ki, müsabiqənin təşkilinin bütün mərhələlərinin elektron həllər və proqram təminatını təşkil etsin.

8. Maliyyə-təminat və proqnozlaşdırma şöbəsinin müdiri Anar Hüseynova tapşırılsın ki, müsabiqənin keçirilməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini və bu əmrdən irəli gələn digər məsələlərin həll olunmasını təmin etsin.

9. "İqtisadiyyat Nazirliyində 2024-cü il üzrə növbəti "Uğur yolu" müsabiqəsinin təşkili haqqında" iqtisadiyyat nazirinin 25.09.2024-cü il tarixli 3-21/3-1-F-120/2024 nömrəli əmri ləğv edilsin.

Nazir Mikayıl Cabbarov

**RAZILAŞDIRILMIŞDIR**

**Ehtibar Cəfərov**
**19.09.2025**

**Elvin Camalov**
**25.09.2025**

**Qumru Əsgərova**
**19.09.2025**

**Xəqani Abdullayev**
**19.09.2025**

**Orxan Nəzərli**
**24.09.2025**

**Anar Hüseynov**
**19.09.2025**

Nərgiz Muradova
19.09.2025

**Səməd Bəşirli**
**25.09.2025**

Fariz Cəfərov
24.09.2025

**Rauf Nəcəfli**
**19.09.2025**

**Mətin Eynullayev**
**20.09.2025**

**Amil Əlili**
**22.09.2025**

**Tural Isgəndərov**
**19.09.2025**

Sevinc İsmayılova
19.09.2025

Aidə İbrahimova
19.09.2025

İcraçı: Şamil Quliyev
tel.: 310-28-00 (21-01)

İcraçı: Şamil Quliyev
tel.: 310-28-00 (21-01)